QOBUSTAN: günbəgün inkişaf edən, gözəlləşən diyar

Qobustan rayonunun yaranma tarixi qədim olmasa da, bu diyarın sosial-iqtisadi inkişafı və tərəqqisi son illərin məhsuludur. Göstərilən dövlət dəstəyinin nəticəsində qəsəbəyə şəhər statusu verilmiş, geniş infrastruktur layihələri həyata keçirilmişdir. Öz görkəmini günbəgün dəyişərək gözəlləşən Qobustan bu gün Şirvanın dilbər guşələrindən birinə çevrilmişdir. Cari ilin ötən dövründə sakinləri yorulmaq bilmədən çalışmış, xeyli sosial-iqtisadi uğurlara imza atmışlar. Rayonda sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov əldə olunan uğurların təməlində dövlət qayğısının dayandığını vurğulayaraq demişdir:



Bu ilin doqquz ayı rayonumuz üçün çox uğurlu olmuşdur. Xüsusilə ən əlamətdar hadisə möhtərəm Prezidentimiz İlham Əliyevin rayonumuza səfəridir.

Cənab Prezident 2 oktyabr 2017-ci il tarixdə rayonumuzda olaraq görülmüş işlərlə bir daha yerində tanış olmuş, şəhərdə inşa edilmiş 100 yerlik uşaq bağçasının, Təklə-Sündü-Xilmilli yolunun, 4 zolağa genişləndirilmiş Bakı-Şamaxı yolunun Cəngi-Bədəlli hissəsinin açılışını etmiş, şəhərimiz üçün həyati əhəmiyyət kəsb edən su layihəsinin başa çatdırılması ilə əlaqədar Sukanal İdarəsinin yeni inzibati binasında ictimaiyyət nümayəndələri ilə görüşmüşdür. Bu görüşü sizin hər biriniz izləmisiniz. Cənab Prezident bu görüşdə rayon xəstəxanasının tikintisi ilə əlaqədar olaraq bildirmişdir ki, burada işlər yavaş gedir, sürətləndirilməlidir.

Cənab Prezidentin səfərdən sonra imzaladığı Sərəncama əsasən Qobustan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qobustan Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılmışdır.



Möhtərəm Prezidentimizin özünün də qeyd etdiyi kimi, bu səfər ölkə başçısının Qobustan rayonuna 4-cü səfəri idi. Cənab Prezidentin hər bir səfəri respublikamızın hər yerində olduğu kimi, Qobustan rayonunda da əhalinin sosial problemlərinin həlli, rifah halının yaxşılaşması və ümumiyyətlə, rayonumuzun inkişafına çox mühüm bir təkan verir.

Məhz cənab Prezidentimizin təşəbbüsü nəticəsində vaxtilə kiçik bir qəsəbə və kənddən ibarət olan, sosial infrastruktur və abadlıq baxımından, demək olar ki, heç bir inkişafı olmayan 2 yaşayış məntəqəsi birləşdirilərək müasir Qobustan şəhəri yaradılmış və qısa müddətdə burada görülən işlər bizə deməyə əsas verir ki, yaxın gələcəkdə Qobustan şəhəri respublikamızın ən abad, gözəl şəhərlərindən birinə çevriləcəkdir.

Qobustan rayonunda inkişaf yalnız Qobustan şəhəri ilə məhdudlaşmır, bizim kəndlərimizin bir çoxunda artıq içməli su, yol, məktəb, rabitə, elektrik enerjisi ilə təminat məsələləri öz müsbət həlli-ni tapmışdır.

Rayonumuza göstərdiyi bu yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentimizə rayon ictimaiyyəti adından öz dərin minnətdarlığımızı bildirirəm.

Hesabat dövründə ilkin hesablamalara əsasən ümumi məhsul buraxılışı ötən ilin müvafiq dövrünə nisbətən 26,6 faiz artaraq 123 milyon 962 min 800 manat olmuşdur. O cümlədən kənd təsərrüfatı məhsullarının ümumi həcmi 35,6 faiz, tikinti iş və xidmətlərinin cəmi 2,1 dəfə, nəqliyyatda 3,2 faiz, sənaye məhsulunun həcmi 8,7 faiz artmışdır.

Baxılan dövrdə əsas kapitala yönəlmiş investisiyalar 87,8 faiz, o cümlədən tikinti-quraşdırma işlərinin dəyəri 2,0 dəfə artmışdır. Bu ilin 9 ayında muzdla işləyənlərin orta aylıq əməkhaqqı 11,0 faiz artmışdır.

2017-ci ilin 9 ayında rayonun yerli gəlirləri üzrə mədaxil planı 2 milyon 17 min 600 manata qarşı 2 milyon 115 min 100 manat icra olunaraq 104,8 faiz yerinə yetirilmişdir. Fiziki şəxslərin əməkhaqlarından gəlir vergisi 110,4 faiz icra edilmişdir. Hüquqi şəxslərin mənfəət vergisi 1,4 dəfə, hüquqi şəxslərin torpaq vergisi 2,6 dəfə, hüquqi şəxslərdən əmlak vergisi 7,9 dəfə, dövlət rüsumu üzrə proqnoz göstəricisi isə 2,1 dəfə artıqlaması ilə icra edilmişdir. Aksiz vergisi 2017-ci ilin birinci, ikinci və üçüncü rübündə planlaşdırılmadığı halda, 51,5 min manat vergi daxil olmuşdur. Bununla yanaşı, əlavə dəyər vergisi planı 57,2 faiz, sadələşmiş vergi 77,1 faiz, torpaq icarə haqqı 57,2 faiz, sair daxilolmalar isə 21,8 faiz icra edilmişdir. Biz çalışmalıyıq ki, ilin sonunadək bütün tədiyyə növləri üzrə planı yerinə yetirməklə özümüzü daha çox yerli gəlirlərlə təmin edək.

Bu ilin doqquz ayında əhalinin elektrik enerjisi, təbii qaz və içməli su təminatının yaxşılaşdırılması istiqamətində də bir sıra mühüm işlər görülmüşdür:

35 kilovoltluq hava xətlərində 13 ədəd metal dayaq və 15 ədəd izolyator, 10 kilovoltluq hava xətlərində isə 143 ədəd metal, 61 ədəd ağac dayaq, 12780 metr naqil və 346 ədəd izolyator istifadə edilməklə təmir işləri aparılmışdır.

Qobustan şəhərində və Poladlı kəndində 300 ədəd SİP dayaq quraşdırılmış, 7355 metr kabel çəkilmiş, ümumilikdə 250-dən artıq abonentin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, on illərdir hər an insanlar üçün təhlükəli olan 9 çoxmənzilli yaşayış binasında da elektrik xətləri evlərdən kənara çıxarılaraq SİP-ləşdirilmişdir.

2017-ci ilin doqquz ayında rayon üzrə ümumi yığım faizi 89,85 faiz olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 16,6 faiz çoxdur. Əhali istehlakçıları üzrə yığım ötən ilin müvafiq dövrünə nisbətən 21,69 faiz artmışdır.

Ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində rayonumuzda ev təsərrüfatlarının 80 faizindən çoxu, əhali üzrə isə 93 faizi təbii qazla təmin olunmuşdur. Əhali tərəfindən istehlak olunmuş təbii qazın dəyərinin ödənilməsində artıq ciddi intizam yaranmışdır. Bu ilin doqquz ayında rayon üzrə istehlak olunmuş təbii qazın dəyəri əhali üzrə 98,6 faiz ödənilmiş, ümumi itki 1,7 faiz olmuşdur.

Qaz təsərrüfatında görülmüş işlərlə yanaşı, hələ də şəhərin mərkəzində və kəndlərdə köhnə, korroziyaya uğramış qaz xətləri vardır ki, bu xətlər də planlaşdırılaraq dəyişdirilməlidir. Əhalinin 100 faiz təbii qazla təminatı üçün Şıxzahırlı, Təsi, Sədəfli, Cəngi, Qaracüzlü, Ceyrankeçməz, Nardaran və İlanlı kəndlərinin də qazlaşdırılması istiqamətində işlər görülməlidir. İnanırıq ki, növbəti illərdə bu məsələ öz müsbət həllini tapacaqdır.

Əhalinin içməli su təminatı istiqamətində işlər davam etdirilir. Yuxarıda qeyd etdim ki, cənab Prezident Qobustan şəhərinə su xəttinin çəkilişinin başa çatdırılmasını rəsmən qeyd etdi. Artıq şəhərimizdə hər bir evdə 24 saat içməli su təminatı vardır ki, bu da çox böyük nəticədir.

Vaxtilə rayonumuzda, demək olar ki, heç bir kənddə içməli su şəbəkəsi olmadığı halda, hazırda rayon sakinlərinin 35 faizindən çoxu öz evlərində birbaşa içməli sudan istifadə edirlər. Növbəti illərdə biz digər kəndlərimizdə də, ilk növbədə 2013-cü ildə içməli su xətti çəkilmiş Ərəbqədim, Cəmcəmli, Göydərə kəndlərində şəbəkənin qurulmasına nail olmalıyıq.

İçməli suyun dəyəri rayon əhalisi tərəfindən doqquz ayın ümumi yekunları üzrə 93 faiz ödənilmişdir və bundan sonra bu rəqəm 100 faizə çatdırılmalıdır.

Əhalinin sosial müdafiəsi məsələləri diqqət mərkəzində olmuşdur. Rayon icra hakimiyyəti tərəfindən doqquz ayda əlamətdar bayram günlərində 500-dən artıq aztəminatlı ailəyə bayram sovqatı verilmişdir. Nabur kəndində 4 yataq əlili olan Kərimovalar ailəsi üçün 3 mənzilli yaşayış evinin tikintisi başa çatdırılmış, son tamamlama işləri aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə 152 nəfərə əmək pensiyası, 173 nəfərə sosial müavinət, 404 ailənin 444 yeni doğulmuş uşağına birdəfəlik müavinət, 166 nəfərə dəfnlə əlaqədar birdəfəlik müavinət, əmək qabiliyyətini itirdiyinə görə 27 nəfərə sosial sığorta ödənişi, 127 nəfərə analıq məzuniyyəti, 14 nəfər Çernobıl əlilinə birdəfəlik kompensasiya, 19 nəfər penitensiar xidmətdən azad olunmuş şəxsə birdəfəlik müavinət, 2 aztəminatlı ailənin 1 yaşadək uşağına müavinət verilmişdir. Hazırda rayon üzrə 4619 nəfər əmək pensiyası, 2437 nəfər sosial müavinət, 276 ailə isə ünvanlı dövlət sosial yardımı alır.

Hazırda rayonda 3 Qarabağ əlili və 1 şəhid ailəsi üçün fərdi mənzillər tikilmişdir, lakin son tamamlama işlərində ləngimələrə yol verilir ki, bu istiqamətdə işlər sürətləndirilməlidir.

Poladlı kəndində məktəbin adını daşıyan şəhid Mahir Kərimovun abidəsi yenidən qurulmuş, barelyefi qoyulmuşdur.

Fövqəladə Hallar Nazirliyi tərəfindən Təklə Mirzəbaba və Təklə kəndlərinin hər birində bir fərdi yaşayış evinin tikintisi davam edir.

Hesabat dövründə əhalinin məşğulluğu məsələlərinə diqqətlə yanaşılmışdır. Bu ilin sentyabr ayında keçirilmiş Əmək Yarmarkasında 45 nəfərə işə göndəriş verilmiş, 32 nəfər müvafiq işlə təmin olunmuşdur. Rayon məşğulluq mərkəzinin xəttilə hesabat dövründə 360 nəfər müvafiq işlə təmin olunmuşdur ki, onlardan 59 nəfərini qadınlar təşkil edir.

Ümumilikdə, doqquz ayda rayonda 2404 yeni iş yeri açılmışdır ki, 497-si daimi, 1907-si isə mövsümi iş yerləridir. Daimi iş yerlərinin sayı ötən illə müqayisədə 2,4 dəfə, mövsümi iş yerlərinin sayı isə 27 faiz artmışdır.

Rayonumuzda tikinti-quruculuq abadlıq işləri uğurla davam edir. Məlumunuz olduğu kimi, Qobustan şəhərinin kanalizasiya və su şəbəkəsinin qurulması nəticəsində bütün küçələr yararsız hala düşmüşdü. Aparılan məqsədyönlü işlər, gərgin əmək nəticəsində artıq küçələrdə səliqə-sahman yaradılmış, yaşıllıqlar bərpa edilmişdir.

Yaşıllıqlarla bağlı rayonumuzda müvafiq tədbirlər görülür. Bu ilin 9 ayında Qobustan şəhərində 1300-dən artıq müxtəlif növ ağac, 1600-dən artıq qızılgül kolu əkilmişdir.

Heydər Əliyev prospektində ümumilikdə bütün sahələr abadlaşdırılmışdır. Eyni zamanda Bakı-Şamaxı yolunun Qobustan şəhəri daxilindən keçən hissəsində yolun sağ tərəfindəki sahələrdə də abadlıq işləri aparılmış, ərazi-yə 200-dən artıq müxtəlif ağaclar əkilmişdir.

Qobustan şəhərində yeni inşa edilmiş uşaq bağçasının həyətində 30-dan artıq ağac və 400-dən artıq qızılgül kolu əkilmiş, yaşıllıq zolaqları salınmışdır.

Eyni zamanda Cəngi kəndində salınan parkda 3000-dək nar, zeytun və qızılgül kolları əkilmiş, suvarma sistemi qurulmuşdur.

Rayonun Təklə Mirzəbaba və Cəyirli kəndlərində yol kənarlarında 100-dək müxtəlif növ ağaclar əkilmişdir. Bu ənənə bütün kəndlərdə də davam etdirilməlidir.

Cənab Prezidentin tapşırığına əsasən şəhərdə çoxmənzilli binaların təmiri davam edir.

Bundan əlavə, şəhərin Yeni Massiv ərazisinə 1,2 kilometr uzunluqda yüksək keyfiyyətli asfalt yol çəkilmişdir.

Kənddaxili yolların çəkilişi istiqamətində də ciddi işlər görülmüşdür. Doqquz ayda rayonun kəndlərində ümumilikdə 30 kilometrə yaxın daxili imkanlar hesabına çınqıl və ya qara örtüklü yol çəkilmişdir. Hazırda Ərəbqədim kəndinə gedən yolda bu işlər davam etdirilir.

Hesabat dövründə Qobustan şəhərində "Kapital Bank"ın yeni binası istifadəyə verilmişdir ki, bu da müştərilərə nümunəvi xidmət göstərməyə imkan verir.

Qobustan şəhərində şəhər 3 saylı tam orta məktəbi üçün 624 yerlik məktəb binasının, Sədəfli və Təsi kəndlərinin hər birində isə 56 yerlik modul tipli məktəblərin tikinti-quraşdırma işləri başa çatdırılmış, son tamamlama işləri aparılır.

Rayonun Cəngi kəndində parkın tikintisi davam edir.

Onu da qeyd edək ki, bu ilin doqquz ayında rayona 3353,0 min manat dəyərində özəl investisiya qoyulmuşdur. Belə ki, cari ilin 9 ayında rayon fermerləri tərəfindən rayona 10-dan artıq müxtəlif kənd təsərrüfatı texnikaları gətirilmiş, 8 taxıl saxlama anbarı inşa edilmişdir. Rayonun Xilmilli kəndində 2 sahibkar tərəfindən ümumilikdə 10 ha qoz bağı salınmışdır. Bu dövrdə rayonda 1 restoran, 2 ticarət mərkəzinin tikintisinə başlanılmış və hazırda tikinti işləri davam edir. Yerli sahibkarlar tərəfindən cari dövrdə bağça tikintisi, park və yaşıllıqların salınması, yol və içməli su çəkilişi istiqamətində bir sıra layihələr həyata keçirilmişdir. Biz çalışmalıyıq ki, rayon iqtisadiyyatına sahibkarların cəlb olunmasına bundan sonra da ciddi fikir verək. Biz hər bir sahibkara rayonda normal iş şəraiti yaratmağa hazırıq.

Hesabat dövründə İDEA İctimai Birliyinin təşəbbüsü ilə tullantıların idarə edilməsi və təkrar emal edilməsi, təbiətə atılan tullantıların toplanaraq təhvil verilməsi məqsədilə icra hakimiyyətində müvafiq Qərargah yaradılmış, ərazilər üzrə məsul şəxslər müəyyənləşdirilmişdir. Artıq rayon üzrə 9,9 ton kağız və 2,75 ton plastik tullantı toplanmış, 5,2 ton kağız və 0,5 ton plastik isə təhvil verilmişdir.

Məlumdur ki, Qobustan rayonunun iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. Bu il rayonda 53280 ton taxıl istehsal edilmişdir ki, bunun 33914 ton buğda, 19366 ton arpa təşkil edir. Buğda sahəsi üzrə məhsuldarlıq 21,4 sentner, arpa üzrə 20,8 sentner olmuşdur.

Artıq rayonda səpin işləri aparılır. 6424 ha sahədə buğda, 1755 ha sahədə isə arpa səpini həyata keçirilmişdir. Noyabr ayının 15-dək səpini yekunlaşdırmağı nəzərdə tutmuşuq.

Rayonumuzda əkinlərin suvarılması məqsədilə bir sıra tədbirlər nəzərdə tutulur. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən ayrılmış vəsait hesabına Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Xilmilli və Təklə Mirzəbaba kəndlərinin hər birində subartezian quyusu qazılmış, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Ərəbşalbaş və Bədəlli kəndlərinin hər birində 1 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulur.

Rayonumuzun Qaracüzlü kəndi ərazisində 1000 hektar sahədə Aqropark yaradılması istiqamətində işlər davam etdirilir. Təyinat dəyişikliyi ilə əlaqədar tərəfimizdən ilkin sənədlər hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmışdır. 600 hektardan artıq sahədə şum çıxarılmış, Aqroparka gedən 20 km yolun 7 kilometr hissəsinə daş örtük çəkilmiş, 6 kilometr hissəsinə qara örtük vurulmuşdur.

Hesabat dövründə ötən ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın baş sayı 0,3 faiz artaraq 30622 başa, o cümlədən inək və camışların baş sayı 1 faiz artaraq 11510 başa çatmışdır. Qoyun və keçilərin baş sayı 0,2 faiz artaraq 190718 baş olmuşdur. Quşların baş sayı 1 faiz artaraq 87982 başa çatmışdır.

Baxılan dövrdə ət istehsalı 2,1 faiz, süd istehsalı 2,1 faiz, yumurta istehsalı 2,4 faiz, yun istehsalı isə 1,4 faiz artmışdır.

01 oktyabr 2017-ci il tarixə rayon üzrə 1056 baş qaramal süni mayalandırılmış, 289 baş buzov alınmışdır. Bu sahəyə diqqət daha da gücləndirilməlidir. Çünki süni mayalama inəklərin cəmi 9,3 faizini əhatə edir. Biz heç olmasa bunu 40-50 faizə çatdırmalıyıq ki, heyvandarlıq sahəsində ciddi irəliləyişə nail olaq.

Rayonumuzda son illərdə arıçılığa maraq artmışdır. Rayon üzrə hazırda 1214 arı ailəsi vardır ki, cari dövrdə 12 tondan çox bal istehsal edilmişdir. Rayon fermerləri builki Bakıda keçiriləcək yarmarkaya 4 tondan çox bal çıxarmağı nəzərdə tutmuşlar.

2017-ci ilin 9 ayında rayonumuzun idman sahəsində də bir sıra uğurlar qazanılmışdır. Belə ki, rayon idmançıları 3 beynəlxalq, 16 respublika, 22 zona yarışında iştirak etmiş, bu yarışlara qatılmış 500 idmançı rayonumuzu təmsil etmişdir. Ümumilikdə keçirilən yarışlarda 53-ü qızıl olmaqla, 141 dəst medal qazanılmışdır.

Xüsusilə qeyd etməliyik ki, cüdo bölməsi rayonumuzda yeni açılmasına baxmayaraq, qısa müddətdə bir sıra nailiyyətlərə imza atıb. Bu ilin avqust ayında Türkiyədə 15 ölkə idmançıları arasında keçirilmiş turnirdə rayon idmançısı Babarəhim Mirzəyev birinci yerə, Niyyət Yaqubov, Səyyad Alıyev və Samir Qayıbov 3-cü yerə layiq görülmüşlər.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi yüksək diqqət və qayğı bizdən daha gərgin, daha məsuliyyətli işləməyi, verilmiş bütün tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsini tələb edir.

Sonda natiq onu da vurğuladı ki, rayonumuzun daha da inkişaf etdirilməsi, üzərimizə düşən vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün qüvvəmizi səfərbər edəcək, verilmiş bütün tapşırıqların vaxtında yerinə yetirilməsinə nail olacağıq.

Səhifəni hazırladı:
İlham PƏNAHOV,
"Respublika".